S.C.NOVRUZƏLİYEVA
filologiya üzrə fəlsəfə doktoru, dosent
e-mail: sevda.novruzaliyeva@mail.ru

: https://orcid.org/ 0009-0007-9535-7799

N.Ə.ƏLİYEVA
baş müəllim
e-mail: nushabe.aliyeva@bk.ru

: https://orcid.org/ 0009-0008-5052-4722

Azərbaycan Tibb Universiteti
(Bakı şəh., Səməd Vurğun, 167)

:10.62021/0026-0028.2024.2.052

İLHAM ƏLİYEVİN NİTQİNDƏ FRAZEOLOJİ FEİLLƏR

Xülasə. *Prezident İlham Əliyevin nitqini Azərbaycan dilçiliyi baxımından öyrənən bu məqalədə 9 frazeoloji feil araşdırılır, onların işlənmə funksiyaları göstərilir.*
Məqalədə yer alan ***diqqət ayırmaq, göstəriş vermək, səy göstərmək, sözünü tutmaq, start vermək, təmkin göstərmək, yerinə oturtmaq*** *motivasiya yönlü,* ***yeni müstəviyə çıxmaq*** *siyasi yönlü,* ***göz yummaq*** *isə neqativ yönlü frazeoloji feillərdir.*
Məqalə müəllifi sadalanan feillərin birini doğma (azərbaycanca), birini qardaş (türkcə), birini beynəlxalq (ingiliscə), birini postsovet məkanda işlək dildə (rusca) təqdim edir.

Açar sözlər: *İlham Əliyev, Azərbaycan, nitq, linqvistik, frazeoloji feil, motivasiya verici, siyasi yönlü*

Xalqın yaradıb ədəbi dilə ötürdüyü frazeoloji (idiomatik) feillər şair poeziyasına poetik və emosional ibarələr, yazıçı nəsrinə könül oxşayan və diqqət yönəldən ifadələr, alim və jurnalist yazısına mənayüklü söz birləşmələri qatır. Belə feillərin yaranışı ara vermədən davam edir. Dilə vəsiqə alan elə isimlər var ki, onlar frazeoloji feillərin yaranmasına qatılırlar. Məsələn, "veto" ismindən "veto qoymaq", "internet" ismindən "internetə girmək, internetdən almaq, internetə ötürmək", "kosmos" ismindən "kosmosa çıxmaq", "vayfay" ismindən "vayfay çəkmək" və sair yüzlərlə belə sözlər, belə isimlər əcnəbi dillərdən, özəlliklə Avropa dillərindən Azərbaycan dilinə sirayət etməkdədir. Bu linqıvistik və beynəlxalq prosesin önünə çıxmaq mümkün deyil.

Üç dildə – azərbaycanca, ingiliscə, rusca səlis danışan, istədiyi fikir və ifadəni sərbəst çatdıran ölkə başçısı İlham Əliyevin nitqində bol-bol frazeoloji feillər sərgilənir. Bu feillərin eləsi var ki, siyasət yönlüdür, eləsi var ki, iqtisad yönlüdür, eləsi var ki, internet yönlüdür, eləsi var ki, məişət yönlüdür, eləsi var ki, ümümxalq danışıq yönlüdür, eləsi var ki, hərb yönlüdür.

Prezidentin işlətdiyi bütün frazeoloji feillər 20 illik hakimiyyəti dönəmində 90 cildli kitablarında cəm olunub. Bu frazeoloji feilləri yığıb sistemə salmaq, onları ingiliscə-türkcə-rusca prizmasından araşdırmaq sistemli tədqiqatın işidir.

Diqqət ayırmaq *frazeoloji məsdər olaraq*

Azərbaycanda iqlim dəyişmələrinə yanaşma sərgiləyən, onun fəsadlarının azaldılmasının yollarını göstərən Prezident "düşünüb-daşınır" anlamında "diqqət ayırır" frazeoloji feilini, "çalışır" mənasında "səylər göstərir" frazeoloji feilini səsləndirir [1]:

Azərbaycan iqlim dəyişmələri ilə mübarizə məsələlərinə böyük diqqət ayırır, onun mənfi fəsadlarının azaldılması üçün birgə fəaliyyətin təmin olunması istiqamətində səylər göstərir.

"Diqqət ayırmaq" türkcə "dikkat ayırmak", ingiliscə "to pay attention" [2, s. 152], rusca "уделить внимание" [3, s.151] olaraq izlənilir. Örnəkdə "diqqət ayırır" yerinə "diqqət verir, diqqət yetirir, diqqət göstərir, diqqət sərgiləyir, önəm verir, əhəmiyyət verir" frazeoloji feillərinin biri səslənsəydi, məna toxunmaz qalardı, amma biri başqasına diqqət ayırırsa, demək, diqqət ayıran diqqət ayrılana sadəcə önəm vermir, böyük önəm verir. "Diqqət ayırır" feilində "diqqət" ərəbcə olsa da, "ayırır" Azərbaycan-türk köklüdür. Əgər "diqqət" isminin azərbaycanca qarşılığı olsaydı, inanırıq ki, Prezident onu işlədərdi. Göründüyü kimi, sitatda "diqqət ayırır" məna və zaman yüklüdür.

"Azərbaycan iqlim dəyişmələri ilə mübarizə məsələlərinə böyük diqqət ayırır", "Onun mənfi fəsadlarının azaldılması üçün birgə fəaliyyətin təmin olunması istiqamətində səylər göstərir" − iki cümlə olaraq mətin içində sinonimlərdir. "Azərbaycan... diqqət ayırır" isə metafora örnəyidir. Bundan başqa, 1-ci cümlədə "məsələlərinə" sözü təkrar olmasın deyə, Prezident 2-ci cümlədə "istiqamətində" sözünü işlədir, eləcə də 1-ci cümlədə "diqqət ayırır" təkrar olmasın deyə, Prezident 2-ci cümlədə onun frazem sinonimi olan "səylər göstərir" feilini səsləndirir.

Azərbaycan dilinin izahlı lüğətində yer alan diqqət ismində "diqqət ayırmaq" frazem məsdər olaraq yoxdur. Baxmayaraq ki, "diqqət vermək, diqqət yetirmək" işləkd [4, s. 623].

Göstəriş vermək *frazeoloji məsdər olaraq*

Avtomobil yolunun inşasından danışarkən Prezident "buyurmuşam" mənasında "göstəriş vermişəm" frazeoloji feilini səsləndirir [5, s. 128]:

Göstəriş vermişəm Qubadlı-Laçın yolunda dörd zolaqlı yol inşa edilsin, yəni bu yol əsasdır.

"Göstəriş vermək" türkcə "talimat vermek", ingiliscə "to give instructions" [6, s. 232], rusca "датъ указание" [7, s. 381] olaraq rastlanır. "Göstəriş vermişəm" frazeoloji feilinin yerinə "əmr vermişəm, sərəncam vermişəm, təlimat vermişəm" işlənə bilərdi, ümumi məna dəyişməz qalardı, ancaq mənə yükü azalardı, çünki bir Prezidentin dilində "göstəriş" anlayışı qalan üçündən daha məqbuldur. Belə ki, ərəbcə olan "əmr" sözündə hərbçinin hərbiçiyə göstərişi, farsca olan "sərəncam" sözündə Prezidentin yazılı formatda göstərişi, ərəbcə olan "təlimat" sözündə aşağı instansiyalı qurumun göstərişi var. Bir də ki, "göstəriş vermişəm" frezeoloji feilinin aparıcı sözü olan "göstəriş" ismi də, yardımçı sözü olan "vermişəm" feili də Azərbaycan-türk köklü olub, doğma anlayışdır. Demək, Prezidentin şifahi söhbət əsnasında bədahətən seçdiyi "göstəriş vermişəm" feili kontekst içində məna və zaman yüklüdür.

Azərbaycan dilinin izahlı lüğətində "göstəriş" isim olaraq anılır, di gəl frazem məsdər olaraq "göstəriş vermək" anılmır [8, s. 267].

Göz yummaq [8, s. 278] *frazeoloji məsdər olaraq*

Qarabağ savaşının çözülməsinə dünya birliyinin, özəlliklə Minsk qrupunun bir töhfə vermədiyini vurğulayan Prezident "önəmsəmirdilər" mənasında "göz yumurdular" frazeoloji feilinə yer ayrırır [5, s. 121]:

Dünya ictimaiyyəti, beynəlxalq təşkilatlar, o cümlədən bu məsələ ilə birbaşa məşğul olan Minsk qrupunun həmsədrləri buna sadəcə olaraq göz yumurdular.

"Göz yummaq" məsdər olaraq türkcə "göz yummak", ingiliscə "to have eyes closed", rusca "закрытъ глаза" [3, s. 251] formatında rastlanır. Sitatda "göz yumurdular" feili tam yerinə düşür, dinləyicinin diqqətini çəkir, əgər onun yerinə "əhəmiyyət vermirdilər, önəm vermirdilər, nəzərə almırdılar, görməzdən gəlirdilər, diqqət vermirdilər, diqqət yetirmirdilər" olsaydı, Minsk qrupu adlı qondarma bir qurumun yalana söykənən siyasi yanaşması belə ifadəli açılmazdı. "Dünya ictimaiyyəti, beynəlxalq təşkilatlar, Minsk qrupu" adlı üçlüyünün qeyri-aktiv yanaşmasını "göz yumurdular" feili açır.

Səy göstərmək *frazeoloji məsdər olaraq*

Azərbaycan ilə Vyetnam arasında dostluq əlaqələrinin möhkəmləndiyini, qarşılıqlı iş birliyinin var olduğunu söyləyən Prezident "çalışacağıq" mənasında "səy göstərəcəyik" frazem feilinin cəm forması olan "səylər göstərəcəyik" feilini işlədir [5, s.41]:

İnanıram ki, ölkələrimizi və xalqlarımızı birləşdirən dostluq münasibətlərinin daha da möhkəmləndirilməsi, qarşılıqı faydalı əməkdaşlığımızın istər ikitərəfli qaydada, istərsə də beynəlxalq təsisatlar çərçivəsində uğurla davam etdirilməsi üçün bundan sonra da birgə səylər göstərəcəyik.

Bu cümlədə 2 dövlət arasında 2 önəmli ismarıc diqqət çəkir. Birinci, münasibətlərin daha da möhkəmdirilməsi; ikinci, onların uğurla davam etdirilməsi. Hər iki ismarıc mövcud kontaktların strategiyası olmaqla gələcəyə yönəlir. Demək, Prezident bir cümlədə dost dövlət üçün siyasi, ekonomik platformasını ortaya qoyur.

"Səy göstərmək" frazemində aparıcı olan "səy" ismi ərəbcə olsa da, türkcə qarşılığı olan "çaba göstermek" frazemində aparıcı olan "çaba" ismi türk köklüdür, ingiliscə qarşılığı olan " to show an effort " frazemində aparıcı olan "effort" ismi yunan köklüdür, rusca qarşılığı olan "проявить усердие" frazemində aparıcı olan "усердие"ismi rus köklüdür. Göründüyü kimi, dörd dildə "səy" isim olaraq, "göstərmək" məsdər olaraq göz önündədir.

Azərbaycan dilinin izahlı lüğətində "səy göstərmək" [9, s. 99] işləkdir, amma cəm forması olan "səylər göstərmək" yoxdur. Qeyd edək ki, türkcədə "çaba göstermek" işlək olduğu kimi, "çabalar göstermek" də işləkdir. İngilis dilində də belədir, həm tək forması olan "to show an effort", həm də cəm forması olan "to show efforts" işləkdir. Bunu rus dilində də görürük, tək formada "проявить усердие", cəm formada "проявить усердия" olaraq.

İngiliscə-azərbaycanca lüğətin "effort" [2, s. 408] ismində "to show an effort" ya da "to show efforts" yoxdur, amma məcazlıq olmayan "to make efforts" [2, s. 408] bir frazem məsdər olaraq "səylər göstərmək" verilir. Bu da düz deyil, belə ki, "to make efforts" feilində məcazlıq yoxdur və "səy etmək" anlamındadır. Rusca-azərbaycanca lüğətin "усердие" [7, s.404] ismində, "проявить" [10, s. 698] məsdərində "проявить усердие" müşahidə olunmur.

Sözünü tutmaq *frazeoloji məsdər olaraq*

Aprel döyüşlərindən sonra Ermənistanın qorxuya düşdüyünü, amma ondan dərs almadığını qeyd edən Prezident "verdiyi sözü icra etdi" mənasında "sözünü tutdu" frazem feilinin inkarı olan "sözünü tutmadı" formasını işlədir [5, s.123]:

Aprel döyüşlərindən sonra Ermənistan qorxuya düşmüşdü və faktiki olaraq, işğal edilmiş torpaqlardan qoşunları çıxarmağa hazır idi, hətta buna söz vermişdi, ancaq ondan sonra sözünü tutmadı.

"Sözünü tutmaq" bir frazem məsdər olaraq türkcə "sözünü tutmak", ingiliscə "to keep word" [2, s. 655], rusca "держать слово" [3, s. 294] imlasında rastlanır. Bu dörd dildə aparıcı söz olaraq "söz", köməkçi məsdər olaraq "tutmaq" işlənilib.

Yuxarıdakı örnəkdə "sözündən yayındı, sözündən qaçdı, sözündən vaz keçdi" frazem feillərindən birini işlətsək, bir Prezidentin dilində səsləndiyinə görə "sözünü tumadı" frazem feilini əvəzləmir. Çünki sadalanan feillərdə kobudluq, ədəbi gözləməmək duyulursa, "sözünü tutmadı" feilində isə ədəb normasını pozmayan qınaq və incik duyulur. Sitatda "söz vermişdi", "sözünü tutmadı" bir-birinə antonim durumda dayanan, erməni rəhbərliyinin gerçək iç üzünü ortaya çıxaran frazemlərdir.

Prezident bir cümlədə dörd xəbər işlətməklə dörd metafora işlətmiş olur – Ermənistanın qorxuya düşməsi, qoşunlarını çıxarmağa hazır olması, söz verməsi, sözünü tutmaması. Prezident sətiraltı olaraq bunu deyir ki, erməni rəhbərliyi siyasi-hərb gücünün önündə əyilir, amma erməni xislətindən yaxa qurtara bilmədiyinə görə verdiyi sözünü tutmur.

Azərbaycan dilinin izahlı lüğətində yer alan "söz" [9, s. 148] ismində, "tutmaq" [9, s.381] məsdərində "sözünü tutmaq" bir frazem məsdər olaraq rastlanmır. İngiliscə-azərbaycanca lüğətdə olan "keep" [2, s. 655] məsdərində "too keep word" var, amma azərbaycancası "sözünü tutmaq" yox, "sözünü yerinə yetirmək" yazılıbdır. Azərbaycanca-rusca lüğətin "дер-

жать” ismində “держать слово” [3, s. 294] rastlanır, amma azərbaycanca tərcüməsinə iradımız var. Belə ki, “sözünün üstündə durmaq” deyil, “sözünü tutmaq” olmalıdır, çünki “держать” sözü “tutmaq” deməkdir, “üstündə durmaq” deyil.

Start vermək *frazeoloji məsdər olaraq*

Revanşist Ermənistan rəhbərliyinin ünvanına Prezident “başlayaq” mənasında “start verək” frazeoloji feilinə yer ayırır [5, s. 124]:

Görürük ki, Ermənistan sülh istəmir, yenə də revanşist fikirlərlə yaşayır. Biz təklif etdik ki, delimitasiya prosesinə start verək.

“Start verək” bir frazem məsdər olaraq türkcə “start verek”, ingiliscə “to give a start” , rusca “дать старт” imlasında işlənir. Dörd dildə aparıcı isim olaraq “start”, köməkçi məsdər olaraq “verək” müşahidə olunur.

Prezident “başlayaq” mənasında “üz tutaq, üz qoyaq, keçid alaq” deyə bilərdi, cümlənin axarı və anlamı saxlanardı, amma emosionallıq, motivasiya olmazdı, çünki “start verək” feilində “başlayaq”, “yenidən başlayaq” anlamı yoxdur, “ilkin olaraq başlayaq” anlamı var.

Prezidentin səsləndirdiyi dörd xəbərin ikisində metafora var − Ermənistan sülh istəmir, Ermənistan revanşist fikirlərlə yaşayır. Bu örnəklərdə Ermənistan toponim deyil. “Ermənistan rəhbərliyi” adlı söz birləşməsini əvəz edənidir. Ölkə başçısı “yenə də” tərzi-hərəkət zərfliyi ilə anladır ki, Azərbaycana qarşı revanşist (qisasçı) yanaşma sərgiləmək Ermənistan rəhbərliyinin xislətinə xas bir işdir.

Azərbaycan dilinin izahlı lüğətində “start” [9, s. 154] ismində, “vermək” [9, s. 471] məsdərində “start vermək” rastlanmır. İngiliscə-azərbaycanca lüğətin “start” ismində “to give a start” [2, s. 1057] var, “start vermək” yox, “səksənmək, diksinmək” anlamında. Rusca-azərbaycanca lüğətin “старт” [7, s. 258] ismində, “дать” [3, s. 279] məsdərində “дать старт” yoxdur.

“Təmkin göstərmək” *frazeoloji məsdər olaraq*

Ermənistan rəhbərliyinin öz üzərinə götürdüyü öhdəliyi pozduğunu, bunun biabırçı bir fakt olduğunu deyən Prezident “bir işin sonunu dərin düşünərək ölçülü davranırıq” mənasında “təmkin göstəririk” frazem feilini səsləndirir [5, s. 251]:

Öz öhdəliyini pozmaq əlbəttə son dərəcə biabırçı faktdır. Lakin biz buna səbir edirik, təmkin göstəririk.

“Təmkin göstərmək” anlayışının türkcə “temkin göstermek”, ingiliscə “to show caution”, rusca “провялять обдуманность” kalka variantları var. “Təmkin göstəririk” feilini “ölçülü davranırıq, ölçülü-biçili davranırıq, səbir göstəririk, səbir sərgiləyirik, duruş gətiririk” feilləri ilə ifadə etmək olar. Amma bu feillər adi feillərdir,” təmkin göstəririk” isə bahalı feildir, ədəbə söykənir, məna yüklüdür, biliyə dayanan təvazökarlıq sərgiləyir.Yerinə düşər deyək ki, ərəbcə olan “təmkin” sözü “məkan” sözündən törəndiyi üçün “yerinə görə bir işin sonunu dərin düşünərək, ona uyğun ölçülü davranmaq” anlamına gəlir.

Demək, Prezident düşmənlərimizə deyir ki, o, yerinə görə hər işin sonunu dərin düşünərək, ona paralel tədbir görən rəhbərdir. Prezident bunu da deyir ki, verdiyi sözünü pozan erməni rəhbərliyinə negativ özəllik xasdırsa, Azərbaycan rəhbərliyinə səbir və təmkin olmaqla pozitiv bir özəllik xasdır. Göründüyü kimi, sitatda bir neqativə qarşı bir pozitiv anlayış var.

Azərbaycan dilinin izahlı lüğətinin “təmkin” [9, s. 310] ismində, “göstərmək” [8, s. 267] məsdərində “təmkin göstərmək” rastlanmır.

Yeni müstəviyə çıxmaq *frazeoloji məsdər olaraq*

Avropa Birliyi ilə Azərbaycan arasında görüşlərin kəskin yüksəldiyini, gərəklilik baxımından yeniləndiyini, qarşılıqlı güvənin artdığını qeyd edən Prezident “yenilənib” mənasında “yeni müstəviyə çıxıb” frazeoloji feilini işlədir [5, s. 251]:

Son aylar ərzində Avropa İttifaqı ilə Azərbaycan arasında təmasların sayı da kəskin artıb, mahiyyət də yeni müstəviyə çıxıb və qarşılıqlı etimad da artıb.

“Yeni müstəviyə çıxmaq” bir frazem olaraq türkcə “yeni seviyeye çıkmak”, ingiliscə “to go a new level”, rusca “перейти на новый уровень” olaraq rastlanır. Sadalanan dörd dildə

"yeni" təyin olaraq, "müstəviyə" tamamlıq olaraq, "çıxmaq" xəbər olaraq sıralanıb. Demək, adı keçən dörd məcazlı məsdər kalkalı feillər arasında yer alırlar.

Düşünürük ki, "yeni müstəviyə çıxmaq" siyası anlamlı feil olaraq ruscadan azərbaycancaya kalka olunub (söz-söz sıralanıb). Qeyd edək ki, "yeni müstəvi" 1-ci növ təyini söz birləşməsindən bir çox frazeoloji məsdərlər yaranıb, onların arasında "yeni müstəviyə keçirmək, yeni müstəviyə keçmək, yeni müstəvi sərgiləmək, yeni müstəvidən baxmaq, yeni müstəvidən çıxış etmək" yer alırlar.

Azərbaycan dilinin izahlı lüğətində "müstəvi" [11, s. 432] ismində, "çıxmaq" [4, s. 475] məsdərində "yeni müstəviyə çıxmaq", İngiliscə-azərbaycanca lüğətin "level" [2, s. 672] ismində, "to go" [2, s. 532] məsdərində " to go a new level", Rusca-azərbaycanca lüğətin "уровень" [7, s. 402] ismində, "перейти" [10, s. 417] məsdərində "перейти на новый уровень" müşahidə olunmur.

Yerinə oturtmaq *frazeoloji məsdər olaraq*

Azərbaycanın Ermənistan ordusuna cavab verdiyini söyləyən Prezident "susdurdu" mənasında "yerinə oturtdu" feilini işlədir [5, s.125]:

Sentyabr ayının 13-də bizə qarşı növbəti təxribat törədildi və Azərbaycan ordusu cavab verərək, düşməni yenə də yerinə oturtdu.

"Yerinə oturtmaq" bir məsdər olaraq türkcə "yerine oturtmak", ingiliscə "to sit down" [2, s. 675], rusca "поставить на место" [10, s. 574] olaraq rastlanır.

"Yerinə oturtdu" feilinin yerinə "yerini göstərdi, həddini göstərdi, dərsini verdi, cavab verdi, qarşılıq verdi" feillərindən birini işlətsək, cümlənin məna yükü azalacaq, çünki "yerinə oturtdu" feillində olan güc, enerji, hakimiyyət, amiranəlik qalan feillərdə yoxdur. Bu feilin bir linqvistik özəlliyi də odur ki, istər "yerinə", istər "oturtdu" Azərbaycan-türk köklü sözlərdir, Avropa-fars-ərəb köklü deyillər. Digər tərəfdən, "təxribat törədildi" ifadəsinin qarşısında "yerinə oturtdu" feili uğurlu bir nitq tapıntısıdır.

Mövzunun aktuallığı. Bu məqalənin aktuallığı ondadır ki, bəlkə də Azərbaycan dilçiliyində ilk dəfə olaraq Prezidentin nitqi frazeoloji feillər baxımından araşdırılır, müzakirəyə çıxarılan 9 frazeoloji feilin hər birinin türkcə, ingiliscə, rusca kalka variantları təqdim olunur. Bundan başqa, hər sitatda linqvistik nüanslara yanaşma sərgilənir və konkret frazeoloji feilin kontekstdə yer almasının səbəbinə aydınlıq gətirilir. Digər bir aktuallıq odur ki, 4 cildli "Azərbaycan dilinin izahlı lüğəti"nin, 1 cildli "İngiliscə-azərbaycanca lüğət"in, 3 cildli "Rusca-azərbaycanca lüğət"in frazeoloji məsdərlər baxımından yetərsizliyi sübuta yetirilir. Demək, bu 3 linqvistik qaynaq yenillənməyə çoxdan ehtiyac duyur.

Elmi nəticə. Məqalənin elmi nəticəsi odur ki, Prezidentin çıxışlarında rast gəlinən azərbaycanca frazeoloji feillərin türkcə, ingiliscə, rusca kalka variantları elmi əsaslarla göstərilir və bununla, məqalə müəllifi bu linqvistik ideyanı irəli sürür ki, Azərbaycan dilində işlənən istənilən frazeoloji feilin sadalanan dillərdə kalka formaları var, yetər ki, tədqiqatçı bu 4 dili dərindən bilsin və internet qaynaqlarından yararlanmağı bacarsın.

Tətbiqi əhəmiyyət. Bu tədqiqat işində müzakirəyə çıxarılan linqvistik qənaətlərdən və əldə olunan elmi nəticələrdən frazeoloji feillərin öyrənilməsinə yönələn dissertasiya işlərinin, elmi məqalələrin yazılmasında istifadə oluna bilər. Bunu deməyə bizə əsas verən odur ki, məqalə heç bir elmi işi təkrarlamır və yalnız yenilikçi bir auranı işıqlandırır.

Ədəbiyyat

1. https://www.eco.gov.az/ Azərbaycan iqlim dəyişmələri
2. İngiliscə-azərbaycanca lüğət / Bakı:Şərq-Qərb, – 2004, – 1320 s.
3. Rusca-azərbaycanca lüğət: [3 cilddə] / Bakı: Elm, – c.1. – 1983, – 1984 s.
4. Azərbaycan dilinin izahlı lüğəti: [4 cilddə] / Bakı: Şərq-Qərb, – c.1.– 2006, – 740 s.
5. Əliyev, İ. İnkişaf-məqsədimizdir / İ.Əliyev, – Bakı: Azərnəşr, – 2022, – 315 s.
6. Azərbaycanca-ingiliscə lüğət / Bakı:Elm, –1998, – 635 s.

7. Rusca-azərbaycanca lüğət: [3 cilddə] / Bakı:Elm, − c.3. − 1983, − 554 s.
8. Azərbaycan dilinin izahlı lüğəti: [4 cilddə] / Bakı: Şərq-Qərb, − c.2. − 2006, − 792 s.
9. Azərbaycan dilinin izahlı lüğəti: [4 cilddə] / Bakı: Şərq-Qərb, − c.4. − 2006, − 712 s.
10. Rusca-azərbaycanca lüğət: [3 cilddə] / Bakı: Elm, −c.2. −1983, − 712 s.
11. Azərbaycan dilinin izahlı lüğəti: [4 cilddə] / Bakı: Şərq-Qərb, − c.3. − 2006, − 672 s.

S.J.Novruzaliyeva, N.A.Aliyeva

Phraseological Verbs in Ilham Aliyev's Speech

Summary

In this article, studying the speech of President Ilham Aliyev from the point of view of Azerbaijani linguistics, 9 phrasal verbs are examined and their processing functions are indicated.

"Pay attention, give instructions, show an effort, keep word, give start, show caution, sit down" in the article are motivational verbs, "go to a new level" is political, and "have eyes closed" is a negative phraseological verb.

The scientist who wrote the article presents one of the listed verbs as native (Azerbaijani), as brother (Turkish), as international (English), as post-soviet functional (Russian).

Key words: *Ilham Aliyev, Azerbaijan, speech, linguistic, phraseological verb, motivational, politically oriented*

С.Дж.Новрузалиева, Н.А.Алиева

Фразеологические глаголы в речи Ильхама Алиева

Резюме

В данной статье, изучая речь Президента Ильхама Алиева с точки зрения азербайджанского языкознания, рассматриваются 9 фразовых глаголов и указываются их обрабатывающие функции.

«*Уделить внимание, дать указание, проявить усердие, держать слово, дать старт, проявить обдуманность, поставить на место*» в статье – мотивационные глаголы, «*перейти на новый уровень*» – политический, а *«закрыть глаза»* – отрицательный фразеологический глагол.

Автор статьи, представляет перечисленные глаголы как элемент родного (азербайджанский), как братского (турецкий), как международного (английский), как постсоветского функционального (русский) языков.

Ключевые слова: *Ильхам Алиев, Азербайджан, речь, языкознание, фразеологический глагол, мотивационный, политически ориентированный*.

Rəyçi: elmlər namizədi E.İ.Quliyev

Redaksiyaya daxil olub: 16.04.2024